UOT 37.

***Əsmət İdris qızı İsmayılxanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-1151-4440*
*E-mail:a.ismayilxanova@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(5).28-31*

# TƏHSİL SİSTEMİNDƏ ƏLVERİŞLİ FƏALİYYƏTİN İNKİŞAF DİNAMİKASI

***Asmet Idris Ismayilkhanova***
*associate professor of Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in pedagogy*

# THE DYNAMICS OF FAVOURABLE PRACTICE DEVELOPMENT IN THE EDUCATION SYSTEM

***Асмет Идрис гызы Исмаилханова***
*доцент Азербайджанского Государственного Педагогического Университета, доктор философии по педагогике*

# ДИНАМИКА РАЗВИТИЯ БЛАГОПРИЯТНОЙ ДЕЯТЕЛЬНОСТИ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

**Xülasə**. Məqalə çox aktual bir məsələyə, təhsil sistemində əlverişli fəaliyyətin inkişaf dinamikasına həsr olunmuşdur. Müəllif qeyd edir ki, müasir dövrdə ümumtəhsil müəssisələrinə rəhbərlik edənlərin əksəriyyəti məktəbdə təhsilin keyfiyyətinə xüsusi diqqət göstərirlər. Lakin demək lazımdır ki, bu çox da asan məsələ deyil. Ona görə də müvəffəqiyyətli təlim-tərbiyə prosesinə mane olan, inkişafına ciddi dərəcədə təsir edən amillər mövcuddur ki, bu amillərin aradan qaldırılması çox vacib məsələdir. Odur ki, istənilən cəmiyyətdə təlim-tərbiyə məsələləri şagirdlərin marağına uyğun təşkil olunmalıdır. Əks təqdirdə durmadan dəyişən, qloballaşan dünyada cəmiyyətə problemlər yaranmağa başlayır.

Müəllif haqlı olaraq bildirir ki, ümumtəhsil məktəblərində şagirdlərin fərdi xüsusiyyətləri, imkanları, bacarıq və qabiliyyətləri nəzərə alınmalı, təhsil prosesinin diferensiallaşdırılması diqqət mərkəzində saxlanmalıdır.

Müəllifin fikrincə, işinin peşəkarı olan müəssisə rəhbəri strateji plan düşünməli, bütün vasitələrdən istifadə edərək pedaqoji kollektivi inandırmalı, yeri gələrsə kollektivinə güvənərək onlara arxalanmalıdır. Yalnız belə olduqda müəssisədə səmərəli tədris-tərbiyə prosesini təşkil etmək mümkündür.

***Açar sözlər:*** *qloballaşma, ekoloji problem, demokratikləşdirmə, humanitarlaşma, inteqrasiya, fərdiləşdirmə, diferensiallaşdırma, dinamika, innovasiya*

**Abstract.** This article addresses a highly topical issue – the dynamics of developing favourable practices within the education system. The author observes that most contemporary leaders of general education institutions place particular emphasis on the quality of education in schools. However, it must be acknowledged that ensuring this is no simple task. There are numerous factors that hinder a successful teaching and educational process and significantly affect its development, and addressing these factors is of paramount importance.

Therefore, in any society, matters of teaching and upbringing must be organised in line with students' interests. Failing to do so, particularly in an ever-changing and globalising world, inevitably leads to emerging societal problems. The author rightly points out that in general education schools, students' individual characteristics, capacities, skills and abilities must be taken into account, and the differentiation of the educational process should remain a central focus. Author believes that a competent head of an educational institution must think strategically, make use of all available means to convince the teaching staff, and, when needed, place trust in and rely on their collective. Only under such conditions is it possible to establish an effective teaching and educational process within the institution.

***Keywords:*** *globalisation, environmental issue, democratisation, humanisation, integration, individualisation, differentiation, dynamics, innovation.*

**Аннотация.** В статье рассматривается весьма актуальная тема – динамика развития благоприятной деятельности в системе образования. Автор отмечает, что большинство современных руководителей общеобразовательных учреждений уделяют особое внимание качеству образования в школах. Однако следует признать, что обеспечить это – непростая задача. Существует множество факторов, которые препятствуют успешному учебно-воспитательному процессу и существенно влияют на его развитие, и решение этих факторов имеет первостепенное значение. Поэтому в любом обществе вопросы обучения и воспитания должны быть организованы в соответствии с интересами учащихся. В противном случае, особенно в постоянно меняющемся и глобализирующемся мире, это неизбежно приведёт к возникновению общественных проблем.

Автор справедливо отмечает, что в общеобразовательных школах необходимо учитывать индивидуальные особенности, способности, умения и навыки учащихся, а дифференциация образовательного процесса должна оставаться в центре внимания.

Автор считает, что компетентный руководитель образовательного учреждения должен мыслить стратегически, использовать все доступные средства для убеждения педагогического состава, а при необходимости доверять и опираться на свой коллектив. Только при таких условиях возможно наладить эффективный учебно-воспитательный процесс в учреждении.

***Ключевые слова:*** *глобализация, экологическая проблема, демократизация, гуманизация, интеграция, индивидуализация, дифференциация, динамика, инновация*

Müasir dövrdə ümumtəhsil müəssisələrinə rəhbərlik edənlərin əksəriyyəti məktəbdə təhsilin keyfiyyətinə xüsusi diqqət göstərirlər. Lakin demək lazımdır ki, bu çox da asan məsələ deyil. Ona görə də müvəffəqiyyətli təlim-tərbiyə prosesinə mane olan, inkişafına ciddi dərəcədə təsir edən amillər mövcuddur ki, bu amillərin aradan qaldırılması çox vacib məsələdir. Odur ki, istənilən cəmiyyətdə təlim-tərbiyə məsələləri şagirdlərin marağına uyğun təşkil olunmalıdır.

Elm və texnikanın sürətli inkişafı, bərabərində ekoloji problemlər, enerji və xammal çatışmazlığını da gətirir. Sürətli yoxsullaşma, cinayətkarlıq, terrorizm, iqtisadi bərabərsizlik halları artır. Dövrümüzün bu aktual problemlərinin həlli insanlar qarşısında bir çox tələblər qoyur ki, bunlar siyasətin yeniləşməsi, təbiətə qayğı ilə yanaşmaq və yeni münasibətlər qurulmasıdır. Bu problemlərin də həlli təhsil sahəsində keyfiyyətli fəaliyyətin təmin olunmasından keçir. Hal-hazırkı problemlərin həll edilməsi üçün təhsil-tərbiyə sahəsində islahatlar aparılmalı, təhsil cəmiyyətin maraqlarına cavab verməli, təhsilin quruluşu və məzmununda, təlimin metodlarında dəyişikliklər edilməli, innovasiyalardan və yeni təlim texnologiyalarından geniş istifadə edilməlidir. Təhsil müəssisələrinin təlim-tərbiyə sistemini xarakterizə edəcək keyfiyyəti artırmaq, daha böyük müvəffəqiyyətlər qazanmaq üçün, hər bir şagirdə onun bilik, bacarıq, vərdiş və maraqlarına müvafiq şərait yaradılmalı və yüksək təlim nəticələri əldə edilməlidir. Çünki, ümumtəhsil məktəblərinin qarşısında dayanan sosial sifariş mənəvi, psixoloji, fiziki cəhətdən hər tərəfli hazırlığa malik olan Azərbaycan vətəndaşı formalaşdırmaqdır. Aparılan tədqiqatların nəticələri onu göstərir ki, təlim prosesinin keyfiyyətinin artırılması üçün mütləq şəkildə yeni təlim texnologiyaları, fəal təlim metodları, innovasiyalar tətbiq edilməlidir. Odur ki, məktəb təhsilini təkmilləşdirməyin iki şərtinə diqqət etmək lazımdır. İlk növbədə təhsil-tərbiyə sisteminin məzmununu yeniləmək, ikincisi isə fənn müəllimlərinin qarşısında yeni-yeni tələblər qoymaq. Fəal təlim metodları ilə dərs keçən müəllimlər öncə öz fənnini dərindən bilməli, sonra isə onu şagirdlərə necə çatdıracağının yollarını tapmalıdır. Bunun üçün sinifdə sağlam mühit yaradılmalıdır. Mühiti sağlam olmayan yerdə yeni islahatlar aparmaq mümkün deyildir. Sağlam pedaqoji mühitdə şagirdlərin təfəkkür tərzi inkişaf etdirilməli, onların elmi bilikləri müstəqil, sərbəst əldə etmələrinə və tətbiq etmələrinə şərait yaradılmalı, onlarda əməkdaşlıq etmək qabiliyyəti formalaşdırılmalıdır.

Tərbiyə də təhsil sisteminin ən vacib funksiyalarından biridir. V. Belinsk təhsilin ən ali mərtəbəsində mənəvi-əxlaqi təhsilin dayandığını vurğulayır. Tərbiyə təhsildən çox yüksəkdədir, insan elə tərbiyə sayəsində insan olmuşdur. Odur ki, tərbiyə istər ailədə, istərsə də məktəbdə daima diqqət mərkəzində saxlanılmalıdır. Tərbiyə olmayan yerdə keyfiyyətli təlimdən söhbət gedə bilməz.

Müasir dövrdə təhsil islahatlarının əsas məqsədi hərtərəfli dünyagörüşə malik, rəqabət qabiliyyətli insan yetişdirilməsinə çalışan Milli təhsil sisteminin qurulmasıdır. Yaradılan bu sis-

tem demokratikləşdirmə, humanitarlaşma, inteqrasiya, fərdiləşdirmə, diferensiallaşdırma prinsiplərini özündə ehtiva edir.

Bu növ prinsiplərin həyata keçirilməsi məktəblilərin təlim-tərbiyə prosesinin subyektinə çevrilməli, onların bir şəxsiyyət kimi formalaşmasını təmin etməli, bütün mövcud qurumların səyləri şagirdlərin mənafeyinə istiqamətləndirilməlidir. Ümumtəhsil məktəblərində şagirdlərin fərdi xüsusiyyətləri, imkanları, bacarıq və qabiliyyətləri nəzərə alınmalı, təhsil prosesinin diferensiallaşdırılması diqqət mərkəzində saxlanmalıdır. Təlim prosesində diferensiallaşmanın tətbiqi şagirdlərin təlim keyfiyyətlərini və onların motivasiyalarını yüksəldir. Belə olduğu zaman fənn müəllimləri yeni pedaqoji texnologiyaların nəzəri-praktik əsaslarını mənimsəyir və tədqiqatın fəal iştirakçısı olurlar. Eyni zamanda həm tədris proqramlarına daxil edilən fənlərin mənimsənilmə dinamikasını təhlil edirlər, həm də alternativ fənn proqramlarının işlənməsində, alınan nəticələrin tədqiqatın parametrinə uyğun gəlib-gəlməməsini müəyyən edirlər. Bildiyimiz kimi yeni innovasiyaların tətbiqi çox mürəkkəb prosesdir və onların təlim prosesinə tətbiq edilməsində təşkilati məsələlər çox vaxt aparır.

Belə təşkilati məsələlərin nəticələrini isə öncədən müəyyənləşdirmək çox çətindir və bu cür dəyişikliklər pedaqoji kollektivin psixoloji mühitinə təsir göstərir. Belə olduqda kollektivin bəzi üzvləri baş verən dəyişikliklərin mənasını başa düşmürlər və yeniliklərin həyata keçirilməsinə əngəl olmağa çalışırlar. Məktəbin idarə edilməsində mövcud olan bu tip problemlər həmin məktəbin inkişafına istiqamətlənmiş tələblərin və göstərişlərin tətbiqinə imkan vermir. Bəs bu hansı problemlərdir?

**- Məktəbin təşkilati məsələləri ilə əlaqədar olan problemlər.** Bu problemlər bir çox məktəblərdə özünü göstərsə də formasına və miqyasına görə bir-birindən fərqlənir. Bu zaman yaşlı, hətta veteran müəllimləri, bəzən yenicə müəllimlik fəaliyyətinə başlayan gənc müəllimləri belə qorxudaraq onların gələcəkdə bir çox çətinliklərlə üzləşəcəklərini qeyd edirlər. Gənc müəllimləri səssiz-səmirsiz məktəbdə cərəyan edən köhnə təşkilati işlərlə məşğul olmağa təhrik edirlər. Bu işlər isə gənclərin qarşıdakı əmək fəaliyyətində səhvlər buraxmalarına, inkişafdan geri qalmalarına, yeni təhsil sistemi formalaşdırmasında və səmərəli təlim-tərbiyə sistemində geriləmələrə səbəb olur. Bəzi ümumtəhsil müəssisələrini idarə edənlər müəllimin əməyinin qiymətləndirilməsinə vəsait çatışmazlığını bəhanə edir, təlim prosesində üzləşdikləri problemlərin həllində və vəzifə bölgüsündə çətinlik çəkirlər. Belə hallarda o müəssisədə fəaliyyət göstərən müəllimlər səmərəli fəaliyyət göstərmir, yeniliklərlə barışa bilmir və işinə ənənəvi qaydalarla davam edir. Müəssisə rəhbəri tam formalaşmayan analitik mədəniyyəti müəyyən etməyə, mövcud problemləri aşkara çıxarmağa, bu problemləri yaradan səbəbləri təhlil etməyə, əldə olunan müsbət nəticələri qiymətləndirməyə imkan vermir.

Lakin qeyd edək ki, təhsil müəssisələrində tətbiq olunan innovasiyalarla əlaqəli dəqiq məlumat olarsa pedaqoji kollektivin üzərinə düşən məsuliyyət yüngülləşmiş olur. Tətbiq edilən innovasiyalar pedaqoji kollektivi daha həvəslə işləməyə həvəsləndirir. Bəzən innovasiyaların azlığı təcrübədə özünü doğruldan və pedaqoji kollektivə yaxşı məlum olan işlərin tətbiqində bir həvəssizlik yaradır.

Digər bir neqativ hal isə müəssisə rəhbərinin özünüqiymətləndirmədə obyektiv olmaması, özünü digərlərindən daha üstün görməsi, obyektiv edilən tənqidi qəbul etməməsi inkişafa güclü zərbə vurur və müəssisənin inkişafını ləngidir. Təbii ki, bu zaman kollektivdə münaqişələr baş qaldırır. Göstəricilərin səviyyəsi aşağı enir. Təhsilin keyfiyyətinin səmərəliliyi baxımından kollektivdə inam azalır.

**- Şəxslərlə bağlı meydana çıxan problemlər.** Məlumdur ki, hər bir mütəxəssis malik olduğu vərdişləri, əldə etdiyi məsləki, meyli və əqidəsi ilə iş həyatına atılır. Bu məziyyətlərlə insanların xarici təsirlərə və təşkilati mühitə reaksiyası müəyyən edilir. Birinə tamamilə lazımsız görünən işlər, başqasında ciddi çətinliklər törədə bilir. Çoxcəhətli səmərəliliyin anlaşılmaması məktəb daxilində informasiya mübadiləsini çətinləşdirərək məktəb işlərinin planlı həyata keçirilməsinə maneələr törədir, təlim-tərbiyə işində uğur qazanmağa imkan vermir.

Təlim prosesində innovasiyaların tətbiqi nəticəsində müvəffəqiyyətin qazanılması üçün çox vaxt riskə getmək müsbət nəticələr verə bilir. Odur ki, yüksək göstəricilərin, yeniliklərin qazanılması üçün riskə getmək mütləqdir. Bu bir həqiqətdir ki, ümumtəhsil müəssisələrinin

işlərinin səmərəli aparılmasında çox əngəllər mövcuddur, çünki çoxları elə düşünür ki, innovasiyaların tətbiqində edilən cəhdlər uğursuzluqla nəticələnəcək. Bu cür düşünən insanlar öz fəaliyyətlərini müəyyən qanunlar, qaydalar, göstərişlərlə məhdudlaşdıraraq ona qanuni don geyindirməyə çalışırlar. Lakin öz işini gözəl bilər, verdiyi qətiyyətli qərardan dönməyən cəsarətli məktəb rəhbəri istənilən kompromis variantı tapır, qaydaları dəyişir, yenilikləri qəbul edir. Belə cəsarətli məktəb rəhbərləri üçün keçilməyən sədd yoxdur. Ancaq bəzən elə maneələr yaranır ki, o hökmən aradan qaldırılmalıdır, elələri də vardır ki, ya onu arxa plana atmaq, ya da dözüb tab gətirmək lazım gəlir.

İşinin peşəkarı olan müəssisə rəhbəri bu maneələri dəf etmək üçün strateji plan düşünməli, bütün vasitələrdən istifadə edərək pedaqoji kollektivi inandırmalı, yeri gələrsə kollektivinə güvənərək onlara arxalanmalıdır. Yalnız belə olduqda müəssisədə səmərəli tədris-tərbiyə prosesini təşkil etmək mümkündür. Pedaqogika elminin tarixinə baxsaq görərik ki, təhsil əmək ehtiyatlarının inkişafında ən səmərəli amilidir və hazırda da öz təsirini qorumaqdadır. Tədqiqatların nəticələri onu göstərir ki, təhsilin məqsədini, vəzifələrini yerbəyer etmək, yeni texnologiyaların, informasiyaların həcminin dəyişməsini, həmçinin dərk edilməsinin yeni metodlarını, üsullarını modernləşdirmədən bir çox problemlər meydana gələ bilər ki, bunlardan aşağıdakıları qeyd etmək olar:

- inkişaf etmiş dünya ölkələrinin əmək bölgüsündə ölkənin arxa planda qalması, dünya bazarında iqtisadi cəhətdən başqa ölkələrdən asılılığı;
- əhalinin bir hissəsinin həyat şəraiti səviyyəsinin aşağı düşməsi;
- mədəniyyətimizin və milli dəyərlərimizin qorunub saxlanmasında problemlərin yaranması;
- ölkə vətəndaşları arasında intellektual təbəqələşmənin əmələ gəlməsi;
- müəyyən səbəblərdən uşaqların, yeniyetmə və gənclərin həm təhsildən, həm də mədəniyyətimizdən uzaqlaşması;
- iş tapmayanların, işində uğursuz olanların, mənfi əxlaqlı, qeyri-etik hərəkətli gənclərin sayının artması və s.

Hal-hazırda müstəqilliyini qazanaraq inkişaf etmiş dünya ölkələrinin təhsil sisteminə inteqrasiya edən Azərbaycan Respublikasının təhsilinin əsas məqsədi təhsilimizin inkişafına mane olmağa çalışan, tamlığını pozmağa can atan, formalaşmasına əngəllər törədən səbəbləri aradan qaldıraraq millətimizin milli dəyərlərinə sadiq qalan, dünyəvi dəyərləri qoruyan, dünya sivilizasiyasına, mədəniyyətinə sahib olan, sağlam rəqabət qabiliyyətinə malik, hərtərəfli dünyagörüşə yiyələnən kamil vətəndaş yetişdirməkdən ibarətdir.

**Problemin aktuallığı.** Müasir dövrdə təhsil islahatlarının əsas məqsədi hərtərəfli dünyagörüşə malik, rəqabət qabiliyyətli insan yetişdirilməsinə çalışan Milli təhsil sisteminin qurulmasıdır. Yaradılan bu sistem demokratikləşdirmə, humanitarlaşma, inteqrasiya, fərdiləşdirmə, diferensiallaşdırma prinsiplərini özündə ehtiva edir.

**Problemin elmi yeniliyi.** Təlim prosesində innovasiyaların tətbiqi nəticəsində müvəffəqiyyətin qazanılması üçün çox vaxt riskə getmək müsbət nəticələr verə bilir. Odur ki, yüksək göstəricilərin, yeniliklərin qazanılması üçün riskə getmək mütləqdir.

**Problemin praktik əhəmiyyəti**. İşinin peşəkarı olan müəssisə rəhbəri strateji plan düşünməli, bütün vasitələrdən istifadə edərək pedaqoji kollektivi inandırmalı, yeri gələrsə kollektivinə güvənərək onlara arxalanmalıdır. Yalnız belə olduqda müəssisədə səmərəli tədris-tərbiyə prosesini təşkil etmək mümkündür.

## Ədəbiyyat:


1. İsmixanov, M.A. Məktəbin idarə edilməsi. (Dərs vəsaiti) / M.A. İsmixanov, R.Ə. Bəxtiyarova / - Bakı, -2012. -235 s.
2. Mehrabov, A.O. Təhsildə səriştəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri. Azərbaycan məktəbi. - Bakı: 2007, №1. -112 s.
3. Nəzərov, A.M. Müasir təlim texnologiyaları: Dərs vəsaiti. ADPU-nəşriyyatı. -Bakı, 2012. -103 s.


**Redaksiyaya daxil olub:** 10.09.2025